# “Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə”, “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” və “Miqrasiya orqanlarında qüsursuz qulluğa görə” Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664) 2-ci maddəsinin iyirmi səkkizinci hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və maddəyə aşağıdakı məzmunda iyirmi doqquzuncu, otuzuncu və otuz birinci hissələr əlavə edilsin:

“Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” medalı;

“Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” medalı;

“Miqrasiya orqanlarında qüsursuz qulluğa görə” medalı.”.

**Maddə 2.** “Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 4.** “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 5.** “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 6.** “Miqrasiya orqanlarında qüsursuz qulluğa görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 7.** “Miqrasiya orqanlarında qüsursuz qulluğa görə” 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 8.** "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 9.** "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 noyabr 2012-ci il
№ 454-IVQD

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında

## ƏSASNAMƏ

### Maddə 1. Təltif edilən şəxslər

"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı ilə miqrasiya orqanlarının xüsusi rütbəsi olan işçiləri aşağıdakılara görə təltif edilirlər:

1.1. miqrasiya orqanlarında qulluqda xüsusilə fərqlənməyə və səmərəli fəaliyyətə görə;

1.2. xidməti fəaliyyətdə əldə etdikləri nailiyyətlərə və xidməti vəzifələrinin icrasına nümunəvi yanaşdıqlarına görə;

1.3. miqrasiya orqanlarının inkişafında göstərdikləri xüsusi xidmətlərə görə.

### Maddə 2. Təltif edən orqan

Miqrasiya orqanlarının işçilərini "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı ilə müvafiq icra hakimiyyəti orqanı təltif edir.

### Maddə 3. Döşə taxılma qaydası

"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri

1. "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 35 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

2. Hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduz formalı medalın ön tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairənin daxilində aşağı hissədə həkk edilmiş diametri 2 mm olan səkkizguşəli ulduzdan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca "MİQRASİYA ORQANLARINDA QULLUQDA FƏRQLƏNMƏYƏ GÖRƏ" sözləri həkk olunmuşdur. Medalın ön tərəfinin səthi nahamardır.

3. İkinci dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Dəfnə yarpaqları ilə əhatə olunmuş bu kompozisiyanın yuxarı hissəsində diametri 3 mm olan səkkizguşəli ulduz təsvir olunmuşdur. Səkkizguşəli ulduzlar, yer kürəsi, xəritə, paralel və meridianlar, dairəvi xətlər, dəfnə yarpaqları və sözlər relyefli olub, qızılı rəngdədir.

4. Medalın arxa tərəfinin səthi hamardır, mərkəzində dairə, dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Səkkizguşəli ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Bu kompozisiyadan aşağıda medalın seriyası və nömrəsi, onlardan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ" sözləri, həmin sözlər və medalın seriyası və nömrəsi boyunca diametri 1 mm olan 32 səkkizguşəli ulduz təsvir olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduzlar, sözlər və rəqəmlər relyefli olub, qızılı rəngdədir.[1]

5. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Yaşıl xara lentin kənarlarından mərkəzə doğru bir-birindən 5 mm aralı yerləşən və hər biri 1

mm olan sarı rəngli iki zolağın arasında 3 mm enində sarı rəngli zolaq təsvir edilmişdir. Xara lentin üst hissəsinə eni 5 mm olan hamar qızılı təbəqə bərkidilir. Xara lentin alt hissəsinə eni 7 mm olan hamar qızılı təbəqə bərkidilir, təbəqənin ortasında aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. [2]

6. Medala paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.[3]

Azərbaycan Respublikasının 2012-ci il 2
noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

# “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

“Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələri aşağıdakılara görə təltif edilirlər:

1.1. miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə;

1.2. miqrasiya sahəsində mühüm layihələrin hazırlanmasında və həyata keçirilməsində fəal iştiraka görə.

**Maddə 2. Təltif edən orqan**

Bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı ilə müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Döşə taxılma qaydası**

“Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

# “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikası medalının təsviri

1. “Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 35 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

2. Hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduz formalı medalın ön tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairənin daxilində aşağı hissədə həkk edilmiş diametri 2 mm olan səkkizguşəli ulduzdan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca “MİQRASİYA ORQANLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ” sözləri həkk olunmuşdur. Medalın ön tərəfinin səthi nahamardır.

3. İkinci dairənin daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Xəritənin üzərində əməkdaşlıq simvolu əks olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduz, dairəvi xətt, əməkdaşlıq simvolu və sözlər relyefli olub, qızılı rəngdədir.

4. Medalın arxa tərəfinin səthi hamardır, mərkəzində dairə, dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Bu kompozisiyadan aşağıda medalın seriyası və nömrəsi, onlardan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca “AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ” sözləri, həmin sözlər və medalın seriyası və nömrəsi boyunca diametri 1 mm olan 32 səkkizguşəli ulduz təsvir olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduzlar, sözlər və rəqəmlər relyefli olub, qızılı rəngdədir.[4]

5. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Tünd göy xara lentin hər iki kənarında 1,5 mm enində və onların hər birindən mərkəzə doğru 4 mm aralı 2,5 mm enində sarı rəngli şaquli zolaq təsvir edilmişdir. Xara lentin üst hissəsinə eni 5 mm olan hamar qızılı təbəqə bərkidilir. Xara lentin alt hissəsinə eni 7 mm olan hamar qızılı təbəqə bərkidilir, təbəqənin ortasında aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. [5]

6. Medala paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.[6]

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikasının medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluğunun hər il martın 19-dək 10, 15 və 20 təqvim ili tamam olmuş xüsusi rütbəsi olan işçilər vəzifə borclarını qüsursuz yerinə yetirdiklərinə görə təltif edilirlər.

**Maddə 2. Medalın dərəcələri**

2.1. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikası medalının 3 dərəcəsi vardır:

2.1.1. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı – miqrasiya orqanlarında azı 20 il qüsursuz qulluq edən şəxslərə;

2.1.2. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı – miqrasiya orqanlarında azı 15 il qüsursuz qulluq edən şəxslərə;

2.1.3. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı – miqrasiya orqanlarında azı 10 il qüsursuz qulluq edən şəxslərə verilir.

2.2. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikası medalının ən yüksək dərəcəsidir.

**Maddə 3. Təltif edən orqan**

Miqrasiya orqanlarının işçilərini "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikasının medalı ilə müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 4. Döşə taxılma qaydası**

"Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

1. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 50 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

2. Hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduz formalı medalın ön tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairənin daxilində aşağı hissədə həkk edilmiş diametri 3 mm olan səkkizguşəli ulduzdan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca qızılı rəngli minalı fonda "MİQRASİYA ORQANLARINDA QÜSURSUZ QULLUĞA GÖRƏ" sözləri həkk olunmuşdur. Medalın ön tərəfinin səthi nahamardır.

3. İkinci dairənin mərkəzində qızılı rəngli minalı fonda "I" rəqəmi, onun aşağısında yazılmış "DƏRƏCƏ" sözünün altında qövs boyunca palıd yarpaqları təsvir edilmişdir. Səkkizguşəli ulduz, dairəvi xətlər, palıd yarpaqları, rəqəm və sözlər relyefli olub, qızılı rəngdədir.

4. Medalın arxa tərəfinin səthi hamardır, mərkəzində dairə, dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Bu kompozisiyadan aşağıda medalın seriyası və nömrəsi, onlardan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ" sözləri, həmin sözlər və medalın seriyası və nömrəsi boyunca diametri 1 mm olan 32 səkkizguşəli ulduz təsvir olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduzlar, sözlər və rəqəmlər relyefli olub, qızılı rəngdədir.[7]

5. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Qırmızı xara lentin hər iki kənarında eni 1,5 mm olan zoğalı rəngli, mərkəzində6,5 mm enində açıq sarı rəngli şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin üst hissəsinə eni 5 mm olan hamar qızılı təbəqə bərkidilir. Xara lentin alt hissəsinə eni 7 mm olan hamar qızılı təbəqə bərkidilir, təbəqənin ortasında aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.[8]

6. Medala paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.[9]

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

1. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, səkkizguşəli ulduz formalı, diametri 50 mm olan lövhədən ibarətdir.

2. Hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduz formalı medalın ön tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairənin daxilində aşağı hissədə həkk edilmiş diametri 3 mm olan səkkizguşəli ulduzdan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca gümüşü rəngli minalı fonda "MİQRASİYA ORQANLARINDA QÜSURSUZ QULLUĞA GÖRƏ" sözləri həkk olunmuşdur. Medalın ön tərəfinin səthi nahamardır.

3. İkinci dairənin mərkəzində qızılı rəngli minalı fonda "II" rəqəmi, onun aşağısında yazılmış "DƏRƏCƏ" sözünün altında qövs boyunca palıd yarpaqları təsvir edilmişdir. Palıd yarpaqları, rəqəm və söz relyefli olub, qızılı rəngdədir. "MİQRASİYA ORQANLARINDA QÜSURSUZ QULLUĞA GÖRƏ" sözləri, səkkizguşəli ulduz və dairəvi xətlər relyefli olub, gümüşü rəngdədir.

4. Medalın arxa tərəfinin səthi hamardır, mərkəzində dairə, dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi emblеminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Bu kompozisiyadan aşağıda medalın seriyası və nömrəsi, onlardan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ" sözləri, həmin sözlər və medalın seriyası və nömrəsi boyunca diametri 1 mm olan 32 səkkizguşəli ulduz təsvir olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduzlar, sözlər və rəqəmlər relyefli olub, gümüşü rəngdədir.[10]

5. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Qırmızı xara lentin hər iki kənarında eni 1,5 mm olan zoğalı rəngli, mərkəzində bir-birindən 4,5 mm aralı məsafədə eni 2,5 mm olan açıq sarı rəngli 2 şaquli zolaq təsvir edilmişdir. Xara lentin üst hissəsinə eni 5 mm olan hamar gümüşü təbəqə bərkidilir. Xara lentin alt hissəsinə eni 7 mm olan gümüşü təbəqə ~~və həmin təbəqənin mərkəzi boyunca eni 5 mm olan hamar qızılı təbəqə~~ bərkidilir, təbəqənin ortasında aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.[11]

6. Medala paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.[12]

Azərbaycan Respublikasının 2012-ci il
2 noyabr tarixli 454-IVQD nömrəli Qanunu ilə
təsdiq edilmişdir

## "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri

1. "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, diametri 50 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

2. Hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduz formalı medalın ön tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairənin daxilində aşağı hissədə həkk edilmiş diametri 3 mm olan səkkizguşəli ulduzdan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca gümüşü rəngli minalı fonda "MİQRASİYA ORQANLARINDA QÜSURSUZ QULLUĞA GÖRƏ" sözləri həkk olunmuşdur. Medalın ön tərəfinin səthi nahamardır.

3. İkinci dairənin mərkəzində gümüşü rəngli minalı fonda "III" rəqəmi, onun aşağısında yazılmış "DƏRƏCƏ" sözünün altında qövs boyunca palıd yarpaqları təsvir edilmişdir. Səkkizguşəli ulduz, dairəvi xətlər, palıd yarpaqları, rəqəm və sözlər relyefli olub, gümüşü rəngdədir.

4. Medalın arxa tərəfinin səthi hamardır, mərkəzində dairə, dairənin daxilində səkkizguşəli ulduz, onun ətrafı boyunca çevrə formasında üç zolaq təsvir olunmuş, ikinci zolağın üzərində, ulduzun guşələri arasında səkkiz düymə bərkidilmişdir. Ulduzun daxilində müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə yer kürəsi, onun mərkəzində paralel və meridianların kəsişməsi fonunda Azərbaycan Respublikasının xəritəsi təsvir edilmişdir. Bu kompozisiyadan aşağıda medalın seriyası və nömrəsi, onlardan sol tərəfdə aşağıdan başlamaqla dairə boyunca "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ" sözləri, həmin sözlər və medalın seriyası və nömrəsi boyunca diametri 1 mm olan 32 səkkizguşəli ulduz təsvir olunmuşdur. Yer kürəsi, xəritə, paralel və meridianlar, səkkizguşəli ulduzlar, sözlər və rəqəmlər relyefli olub, gümüşü rəngdədir.[13]

5. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Qırmızı xara lentin hər iki kənarında eni 1,5 mm zoğalı rəngli, mərkəzində bir-birindən 2 mm aralı məsafədə eni 2,5 mm olan açıq sarı rəngli 3 şaquli zolaq təsvir edilmişdir. Xara lentin üst hissəsinə eni 5 mm olan hamar gümüşü təbəqə bərkidilir. Xara lentin alt hissəsinə eni 7 mm olan hamar gümüşü təbəqə bərkidilir, təbəqənin ortasında aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.[14]

6. Medala paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur. [15]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri"nin 4-cü hissənin üçüncü cümləsində "**nömrəsi, nömrədən**" sözləri "**seriyası və nömrəsi, onlardan**" sözləri ilə əvəz edilmişdir, "**həmin sözlər və medalın**" sözlərindən sonra "**seriyası və**" sözləri əlavə olunmuşdur.

[2] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri"nin 5-ci hissənin birinci cümlədə "**27 mm x 43 mm**" sözləri "**37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir, üçüncü cümlədə "**4 mm**" sözləri "**5 mm**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri"nin 6-cı hissədə "**27 mm x 9 mm**" sözləri "**37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir.

[4] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri"nin 4-cü hissənin üçüncü cümləsində "**nömrəsi, nömrədən**" sözləri "**seriyası və nömrəsi, onlardan**" sözləri ilə əvəz edilmişdir, "**həmin sözlər və medalın**" sözlərindən sonra "**seriyası və**" sözləri əlavə olunmuşdur.

[5] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri"nin 5-ci hissədə birinci cümlədə "**27 mm x 43 mm**" sözləri "**37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir, üçüncü cümlədə "**4 mm**" sözləri "**5 mm**" sözləri ilə əvəz edilmişdir.

[6] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri"nin 6-cı hissədə "**27 mm x 9 mm**" sözləri "**37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir.

[7] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 4-cü hissənin üçüncü cümləsində "**nömrəsi, nömrədən**" sözləri "**seriyası və nömrəsi, onlardan**" sözləri ilə əvəz edilmişdir, "**həmin sözlər və medalın**" sözlərindən sonra "**seriyası və**" sözləri əlavə olunmuşdur.

[8] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 5-ci hissəsinin birinci cümlədə "**27 mm x 47,5 mm**" sözləri "**37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir, üçüncü cümlədə "**4 mm**" sözləri "**5 mm**" sözləri ilə əvəz edilmişdir.

[9] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 6-cı hissədə "**27 mm x 9 mm**" sözləri "**37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir.

[10] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 4-cü hissənin üçüncü cümləsində "**nömrəsi, nömrədən**" sözləri "**seriyası və nömrəsi, onlardan**" sözləri ilə əvəz edilsin, "**həmin sözlər və medalın**" sözlərindən sonra "**seriyası və**" sözləri əlavə olunmuşdur.

[11] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 5-ci hissədə birinci cümlədə "**27 mm x 47,5 mm**" sözləri "**37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir, üçüncü cümlədə "**eni 4 mm olan gümüşü təbəqə, həmin təbəqənin mərkəzi boyunca eni 1,5 mm olan hamar qızılı**" sözləri "**eni 5 mm olan hamar gümüşü**" sözləri ilə əvəz edilmişdir və dördüncü cümlədən "**və həmin təbəqənin mərkəzi boyunca eni 5 mm olan hamar qızılı təbəqə**" sözləri çıxarılmışdır.

[12] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 6-cı hissədə "**27 mm x 9 mm**" sözləri "**37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir.

[13] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 4-cü hissənin üçüncü cümləsində "**nömrəsi, nömrədən**" sözləri "**seriyası və nömrəsi, onlardan**" sözləri ilə əvəz edilmişdir, "**həmin sözlər və medalın**" sözlərindən sonra "**seriyası və**" sözləri əlavə olunmuşdur.

[14] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 5-ci hissədə birinci cümlədə "**27 mm x 47,5 mm**" sözləri "**37 mm x 50 mm**" sözləri ilə əvəz edilmişdir və üçüncü cümlədə "**4 mm**" sözləri "**5 mm**" sözləri ilə əvəz edilmişdir.

[15] 30 sentyabr 2013-cü il tarixli **742-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti 29 noyabr 2013-cü il, № 262)** ilə "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri"nin 6-cı hissədə "**27 mm x 9 mm**" sözləri "**37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir və "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə", "Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə" və "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 1-ci dərəcəli, "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 2-ci dərəcəli və "Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" 3-cü dərəcəli Azərbaycan Respublikası medallarının eskizləri yeni eskizləri ilə əvəz edilmişdir.